# "Həm uduzmağı, həm də qalib gəlməyi öyrəndim"

Naxçıvan şahmatçısı Tural Zeynalov Beynəlxalq Şahmat Federasiyası – FIDE tərəfindən "Arena Grand Master" (AGM, Arena Qrossmeyster) tituluna layiq görülüb. Həm FIDE hakimi, həm də şahmat müəllimi kimi fəaliyyət göstərən Tural Zeynalovun bu titulu Muxtar Respublikada ilk hesab olunur. Titul federasiyanın rəsmi onlayn platforması olan "FIDE Online Arena"da (worldchess.com) göstərilən nəticələrə əsasən verilir.

"Azərbaycan müəllimi" bu uğuru bölüşmək və şahmatçının hekayəsini oxucularla paylaşmaq üçün onunla həmsöhbət olub.



Tural ZEYNALOV:

## "AGM titulu mənim üçün daha böyük hədəflər üçün motivasiyadır"



Tural Zeynalov 1989-cu ilin aprelində Bakı şəhərində anadan olub. 2012-ci ildə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin "İngilis dili müəllimliyi" ixtisasını bitirib. Hazırda Naxçıvan Qarnizonunun tam orta məktəbində və Naxçıvan şəhər UG Şahmat Məktəbində şahmat müəllimi kimi çalışır. Şahmat oynamağa 1997-ci ildə başlayıb:

**"Fiqurların hərəkətini öyrəndiyim vaxt"**

"İlk dəfə fiqurların hərəkətini, qaydaları öyrəndiyim vaxt bu oyunun mənim həyatımda belə böyük yer tutacağını bilmirdim. Uşaqlıqda evdə və məktəbdə şahmatla tanış oldum, sadə kombinasiyalar həll edib, oyunun incəliklərinə maraq göstərməyə başladım.

Sonrakı illərdə məktəb və yerli yarışlara qatıldım. Burada həm uduzmağı, həm də qalib gəlməyi öyrəndim. Hər yarış mənim üçün bir təcrübə, hər səhv isə öyrənmə fürsəti idi. Oyun üslubumu tədricən formalaşdırdım və şahmatın dərinliklərinə daha çox vardım".

2010-cu ildən daha ciddi məşqlərə başlayıb. Açılış repertuarını genişləndirib, kombinasiyalar və strateji planlar üzərində işləyib. FIDE və onlayn platformalarda oyunlar oynayaraq reytinqini artırmağa çalışıb:

**"Şahmat mənim üçün sadəcə oyun deyil"**

"Son illərdə şahmat artıq həyatımın ayrılmaz hissəsinə çevrilib. Davamlı məşq edir, öz üzərimdə işləyirəm. AGM titulu mənim üçün böyük uğurdur və gələcəkdə daha böyük hədəflər üçün motivasiyadır. Şahmat mənim üçün sadəcə oyun deyil, həm də həyat və düşüncə tərzidir. Bu yolda atdığım hər addım məni daha güclü və inamlı edir".

Tural müəllim deyir ki, şahmat yolunda ona ən böyük dəstək və ilham verən şəxs nənəsi olub: "Uşaqlıqda şahmatla ilk tanış olduğum vaxtlarda nənəm mənə bu oyunun sirlərini açmağa kömək etdi. Nənəm yalnız fiqurların hərəkətini öyrətmədi, eyni zamanda düşünməyi, səbirli olmağı və hər vəziyyətdən çıxış yolu tapmağı öyrətdi. Onun xatirəsi bu gün də mənimlədir və ən böyük motivasiyamdır".

**"Zəhmət və məşqlərimin nəticəsini gördüm"**

AGM titulunu aldığı an yaşadığı hissləri belə təsvir edir: "Uzun müddət davam edən zəhmət və məşqlərimin nəticəsini gördüm. Həyatımda ən xoşbəxt anlardan biri idi. Bu, sadəcə bir ad deyil, zəhmətimin və sevgimin simvoludur. Şahmatın insana verdiyi sakitlik və diqqət toplama bacarığı bu oyunu daha da sevməyimə səbəb oldu".

**Aytən YUSİFOVA,**